# POETİK RUHUN GÖZƏLLİYİ

## (Arzu Müzəffərqızının yaradıcılığı haqqında qeydlər)

**Hər şair bir qapıdır və misra-misra açılır. Sözün üzünə... Şairlik təkcə şeir yazmaqla tamamlanmır, bu bir tale işidir... Ola bilər ki, bir adam bir ömür şeir yazsın, amma şair ola bilməsin... Və o adama baxıb əli üzündə qalar dünyanın... Mən ürəyini sözün üzünə qapı kimi açan şairlərin könül qapısından keçməkdən həmişə məmnun oldum...**

Arzu Müzəffərqızı poetik sözə könül bağlayan istedadlı şairlərin sırasındadır. Milli mütəfəkkirimiz M.F. Axundovun, xalq şairi Bəxtiyar Vahabzadənin yurdu qədim Nuxa, indiki Şəki torpağında dünyaya göz açıb. Öz məzmunu ilə seçilən maraqlı və mənalı bir həyat yolu keçib.

Arzu xanımın şeirlərində yurd, vətən, doğma ocağa bağlılıq hissi məxsusi poetika ilə səciyyələnir. Milli-mənəvi dəyərlərin, intizar, həsrət dolu sevginin, valideyn məhəbbətinin, ləyaqət və insanpərvərlik duyğularının bədii tərənnümü onun poetik nümunələrində səmimi bir kaloritdə öz ifadəsini tapır. Həmçinin, onun şeirlərində uca Allaha, dərin sevginin tərənnümü ilə yanaşı, həyatda xeyirxahlıq, həssaslıq və qayğıkeşlik ruhunun təbliği, sadə insanların arzu, istək və amallarının gerçəkləşməsi konstektində ulu sevgi amillərin rolunun böyüklüyü də səciyyəvi xarakter daşıyır. Arzu xanımın şeirlərində zaman, təbiət, insan amili bədii təfəkkürün tərkib hissəsi kimi çıxış edir.

Gənc yaşlarından ədəbi-bədii yaradıcılığa maraq göstərən Arzu xanımın qələm təcrübələrinin tarixi xronikası onun püxtələşməyə can atmasından, getdikcə buna nail olmasından soraq verir. Əlbəttə, uğurlu yaradıcılıq prosesi üçün peşəkarlıqla yanaşı, şair ovqatının "sarı sim"də gəzişməsi də vacib şərtlər sırasındadır.

Bu mənada da Arzu Müzəffərqızı öz yaradıcılıq yolunda bu önəmli şərtə diqqət yetirir, yəni könlünə yatan, onu həyacanlandıran mövzular, hadisələr qəlbinin poetik işığında təqdim edir.

**Biz gərək heç zaman görüşməyəydik,<br>Gəzərdik özgə tək tamam aralı.<br>Günahkar olmazdı onda qəlbimiz<br>Sən peşman olmazdın, mən də yaralı.**

**Kaş ki, bacaraydım tez unutmağı,<br>Adın yaddaşımdan kaş ki, çıxaydı.<br>Kaş sevə biləydim yadı, yadları,<br>Könlümün gözünə həsrət axaydı.**

**Xoşbəxt olmasam da, bədbəxt deyildim<br>Bu sevgim olubdu başı bəlalı.<br>Sevgim qarşısında sındım, əyildim,<br>Qəlbim də, ruhum da olub yaralı.**

Bu poetik misralarda dərin və saf bir sevginin, hicran və həsrət qoxulu bir qəlbin səmimi duyğuları diqqəti cəlb edir. Lirik qəhrəmanın yaşadığı həsrət ağrısının dərinliyi ilə bərabər eşqin ucalığını, qüdrətini daha parlaq və gözəl ifadə etmək üçün istifadə olunan bədii təsvir və ifadə vasitələrinin təravəti şairin poetik bacarığının ehtivasıdır.

Şairin poetik əsərlərinin lirik qəhrəmanı öz müşahidə qabiliyyəti ilə diqqəti cəlb edir. Onun fərdi poetik siması yalnız qələmə aldığı nümunələrin üslüb cəhətlərində deyil, həmçinin hadisələrə yanaşmasında, onları seçməsində və qiymətləndirməsində, lirik "eqo"nun əhval-ruhiyyəsini təravətli, həm də səmimi çalarlarla ehtiva etməsindədir.

**Bəzən yoxluğunu qəbul etmirəm,<br>Xəyalların məni aldadır hələ.<br>Bir dərdim olanda, sözüm olanda.<br>Şəklinə deyirəm sözümü elə.**

**Sən yoxsan kövrəlmiş uşaq kimiyəm,<br>Dərdimi özümlə açıb bükürəm.<br>Sən yoxsan doğmalar mənə həsrətdi,<br>Mən isə tək sənə həsrət çəkirəm.**

**Sən yoxsan çoxları məni qınayır,<br>Çətin ki, ürəyim, qəlbim oyana.<br>Çoxları "ağlama, səbir elə" - deyir,<br>Yoxsansa, həyat yox bundan o yana.**

İnsan dühasının ən böyük tapıntısı və insan həyatının ən dəyərli xəzinəsi sözdür. Sözün təbiətinə xas olan keyfiyyətlər çeşid-çeşiddir. Bədii sözün mahiyyəti daha təravətli və çoxmənalıdır. Bədii söz dərin ictimai mənası, əhatəli və güclü realizmi, estetik keyfiyyətləri ilə dolğun məzmun kəsb edir. Bu mənada bədii təfəkkürün, ədəbi yaradıcılığın yolu mürəkkəb mündəricəsi ilə seçilir. Yalnız əhəmiyyətli mövzunun qələmə alınması



əsərin ədəbi uğuruna zəmanət verə bilməz. Əsl sənətin gücü dəyərli ideyanın, böyük fikrin obrazlı ehtivasında, təravətli təcəssümündədir.Onun poeziyasında yurd sevgisi, vətənsevərlik, el-oba məhəbbəti, milli özünüdərk və yaddaşa qayıdış duyğusu, böyük önəm daşıyır. Şairin vətən ətirli şeirlərində torpaq ağrısı, yurd həsrəti məxsusi bədii detallarla əks olunur.

**Taqətindən düşmüş əsən dizini,<br>Qucaqlayıb belə ah-nalə demə.<br>Ay oğul sındırdın niyə belimi,<br>Soruşma... Ağlayıb fəryad eləmə.<br>Sil gözün yaşını Şəhid Anası<br>Qəhrəman böyütdün Vətənə-elə.<br>Sən öz övladınla indi fəxr elə,<br>İgid oğul ölər, amma əyilməz!<br>Sən igid böyütdün bu torpaq üçün<br>Düşmən qalib olmaz, sevinə bilməz!<br>Şəhidlər versək də torpağa bu gün<br>Hamımız hazırıq Vətən yolunda.<br>Getmişik, gedərik qurban Vətənə!<br>Sil gözün yaşını Şəhid Anası!<br>Sən öz övladınla bu gün fəxr elə!**

Mübarək sözün ətrini duyanlar az deyil. Min illərdi söz var, sözə könül verənlər, sözün işığında yol gedənlər var. Bəzən adama elə gəlir ki, deyiləsi yeni söz qalmayıb, bir ömür yaşayan insanla, onun həyata gəlişi və həyatdan gedişi arasında Allaha, cəmiyyətə, təbiətə sevgiylə bağlı hər şey deyilib və yazılıb. Ancaq insan təfəkkürünün və düşüncəsinin sərhədləri nəhayətsizdir. Dünyanın, təbiətin, cəmiyyətin saysız-hesabsız görüntüsü mövcuddur və bu vizuallığı uşaqdan tutmuş qocayadək hər kəs özünəxas rakursdan qəbul edir. Şairlər bu görüntüləri, bu mövcudluğu özünəməxsus formada poetik duyumla ifadə edirlər. Bununla da insanı həm riqqətləndirən, heyrətləndirən, həm sarsıdan, həm də heyran edən estetik duyğu aləmi yaradırlar. Şairləri yaşadan da bu estetik aləmdir.

Şairin öz doğma yurdu Şəki haqqında yazdığı poetik nümunə öz bədii sanbalı, həmçinin tarixi-etnoqrafik elementlərin zənginliyi ilə seçilir və diqqəti cəlb edir.

**Fərəhdi vəsf etmək, yurdunu öymək,<br>Şair Bəxtiyardan sonra söz demək.<br>Bəxtiyar deyibdi bu ulu sözü.<br>Ucalıb, yüksəlib, durub dağ təki<br>Dağların qoynunda dağ olan Şəki.**

**Girsən qapısından özün görərsən.<br>Var çox əzəmətli bir "XAN SARAYI"<br>Tarixi abidə görmək istəsən.<br>Sənə xoş olacaq "Karvansarayı".**

**Dağların qoynunda dağ vüqarıyla,<br>Heykəl tək durmayıb canlıdı sanki.<br>Ucalıb boylanıb "ANA Heykəli"<br>Dağların qoynunda bir dağdı ŞƏKİ.**

**Çoxdu şəhərimin gözəl yerləri,<br>Gəzdikcə anbaan olursan xoş hal.<br>"Narıncı Qalası", "Şam Meşələri "<br>Sənə gəl-gəl deyir səsləyir "MARXAL".**

**Dalanı döngəsi olub adbaad<br>Ən kasıb insanı görsə bir qonaq.<br>Əzizlər qonağı, olar qəlbi şad<br>Mən də cürət etdim el qızı təki<br>Dedim ki, mən sənə vurğunam ŞƏKİ.**

O, dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edərək, qələmə aldığı mövzuların bədii həllini, poetik ümumiləşdirməsini özünəməxsus ovqatda təqdim edə bilir.

Arzu Müzəffərqızının yaradıcılığında məxsusi bir məziyyət var ki, onu başqalarından fərqləndirə bilir. Bu cəhəti şərtləndirən amil geniş və dərin mənada sadəlikdir və bu sadəlikdə bədii zənginlik və müdriklik mövcuddur. Onun şeirlərinin məğzini təşkil edən dərin və poetik ictimai məna uğurlu yaradıcılıq səciyyəsi daşıyır. Arzu Müzəffərqızı atasına ünvanladığı poetik məktubun mündəricəsi kövrək və yaddaqalandır.

**Çəkdiyin əzabın sayı bilinməz,<br>Sən mərd dayanmısan əzaba, ata.<br>İxtiyarım olub, qüvvəm çataydı,<br>Səninlə dözərdim hər taba, Ata.**

**Bir tikə çörəyi qazanmaq üçün,<br>Zəhmətkeş əllərin dönüb qabara.<br>Halal zəhmətinlə bəslədin bizi,<br>Düşsən də çətinə, düşsən də dara.**

**Pislik nə olduğun bilə bilmədin,<br>Xeyirxah əməlin sahibi oldun.<br>Həmişə dayağım olduğun kimi,<br>Yenə də səbrlə qayğıma qaldın.**

**Getdiyim yolumun hər başında sən,<br>Çatacaq yolumun sənsən sonu da.<br>Sən çıraq olmusan mənə daima.<br>Ayırma qəlbimdən, alma onu da.**

**Hər gün şükür edirəm uca Allaha<br>Quruca nəfəsin vardı, dövlətdi.<br>Şükür ki, sən mənim atamsan ata,<br>Hər sözü dəyərli, özü hörmətli.**

Şairin lirikasında həsrət və qəm motivlərinin yeknəsəkliyi, sentimental notlar, gərəksiz pafos heç vaxt duyulmur. Onun şeirlərində vətənin, valideyn-övlad məhəbbətinin, doğma ocağın tərənnümü, həmçinin xeyirxahlıq, nəciblik, əzəmət və gözəllik duyğularının bədii müstəvidə səmimi təbliği, bütövlükdə yaradıcılığına dərin ictimai-fəlsəfi mündəricə gətirir.

**Söz həm də güzgüdür. Fikirlərin, duyğuların, düşüncələrin güzgüsü. Bu ilahi güzgü xeyirxah və nəcib əməlləri, qəhrəmanlıqları, yurd, vətən sevgisini, həmçinin mayasında Allah işığı olan bütün sevgiləri, gözəllikləri öz mübarək üzündə əks edir. Müqəddəs sözün saf çeşməsindən içənlər o insanlardır ki, onların alın yazısından ulu Yaradanın təbəssümü boylanır. Arzu Müzəffərqızı bele istedadlı qələm sahiblərindəndir. Ona daha böyük yaradıcılıq uğurları arzulayıram.**

**Balayar Sadiq**

Ədalət 2019.- 5 noyabr.- S.7.